# BİZ AZƏRBAYCAN XALQINI QÜRURLU, CƏSARƏTLİ, YENİLMƏZ XALQ KİMİ TƏSDİQLƏDİK!


COVİD 19: "REALLIQLAR VƏ PROFİLAKTİKA" ADLI VEBİNAR — səhifə-2-də

TEXNOPARKLAR İNNOVASİYAYÖNÜMLÜ VƏ BİLİYƏ ƏSASLANAN İQTİSADİYYATIN QURULMASINDA MÜHÜM ROL OYNAYIR — səhifə-3-də

"JURNALİSTİKA VƏ XARİCİ ÖLKƏLƏR ƏDƏBİYYATI" KAFEDRASINDA ELMİ-TƏDQİQAT İŞLƏRİNİN MÜZAKİRƏSİ KEÇİRİLİB — səhifə-3-də

HƏMRƏYLİKDƏN DOĞAN ZƏFƏR — səhifə-4-də

GƏNCLƏR PAYTAXTININ XOŞBƏXT GƏNCLƏRİ — səhifə-4-də


NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

*HEYDƏR ƏLİYEV*




# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

30 dekabr 2020-ci il, №5 (34)


## "NAXÇIVAN MUXTAR RESPUBLİKASI MÜSTƏQİLLİK YOLLARINDA" ADLI RESPUBLİKA ELMİ KONFRANSI



"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır" bu sözlər Naxçıvan Dövlət Universitetində keçirilən "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında" adlı konfransda səsləndirilib. Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublika 20 ildən artıq bir dövrdə hərtərəfli inkişafa nail olub, əsl intibah səviyyəsinə yüksəlib. Həyatın bütün sahələrində əsaslı dəyişikliklər baş verib və bu işlər bu gün də sürətlə və ardıcıl olaraq davam etdirilir. Rektor diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasında təhsilin, maarif və mədəniyyətin inkişafı Muxtar Respublikanın sosial-iqtisadi inkişafı ilə qırılmaz surətdə əlaqədar olub, bütövlükdə ölkəmizdə həyata keçirilən düzgün, düşünülmüş inkişaf strategiyasının məntiqi nəticəsidir.

"1995-2003-cü illərdə Naxçıvan Muxtar Respublikasının ictimai həyatında milli –mənəvi dəyərlər" adlı çıxışında Azərbaycan tarixi kafedrasının tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərov vurğulayıb ki, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Qeyd edilib ki, hər bir ölkə və xalq üçün onun milli dəyərləri hər şeydən üstün tutulmalı, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq.

Universitetin İngilis dili və tərcümə kafedrasının müəllimi Aidə Cəlilzadə "Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafına dövlət qayğısı" adlı çıxışında qeyd edib ki, Ümummilli liderimiz təhsilin xüsusi əhəmiyyətini vurğulayaraq "Təhsil millətin gələcəyidir" deyirdisə, bu yolu davam etdirən ölkə rəhbəri cənab İlham Əliyev təhsilə "Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə" kimi yüksək dəyər verərək iqtisadi potensialın insan kapitalına çevrilməsini bir vəzifə olaraq qarşıya qoyub. Vurğulanıb ki, ölkə təhsilinin inkişafı məqsədilə nəzərdə tutulan proqramlar və layihələr bütün ölkədə olduğu kimi, muxtar respublikada da uğurla həyata keçirilir.



"Naxçıvanda azad iqtisadı zonanın yaradılması perspektivləri" adlı çıxışında universitetin "İqtisadiyyat" kafedrasının müəllimi Elşən Nəsirov bildirib ki, ticarətin həvəsləndirilməsi, ticarət əməliyyatlarının sürətlənməsi, ticarət xərclərinin azaldılması məqsədilə yaradılan azad iqtisadi zona 1934-cü ildə ABŞ-da qüvvəyə minən xüsusi qanunla başlanıb. Dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında da bazar münasibətlərinin dərinləşməsi, biznes fəaliyyətinin genişlənməsi istiqamətində Azad İqtisadi Zonaların yaradılmasının mühüm iqtisadi önəmi vardır. Son illərdə aparılan davamlı islahatlar siyasəti ölkəmizin iqtisadi qüdrətinin daha da güclənməsinə imkan yaradıb, dinamik sosial-iqtisadi inkişafa təkan verib.

Konfrans "Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının siyasi-iqtisadi inkişafı" və "Müstəqillik dövrü Naxçıvan Muxtar Respublikasında ictimai və mədəni proseslər" adlı bölmə iclasları ilə davam edib.

**Səadət Əliyeva**

***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## "FOLLOW-UP" DƏSTƏK LAYİHƏSİ UĞURLA İCRA OLUNUB

Naxçıvan Dövlət Universiteti və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) Azərbaycan Nümayəndəliyi arasında "Elektron Təhsil Şəbəkəsi və Rəqəmsal Multimedia İnfrastrukturunun Yaradılması Layihəsi"nin Davam Proqramı çərçivəsində elektron avadanlıqların təhvil verilməsi ilə bağlı onlayn formada təqdimat mərasimi keçirilib.

Təqdimat mərasimində universitetin rektoru Elbrus İsayev və KOICA Azərbaycan Nümayəndəliyinin Direktoru Park Kumok iştirak edib.

Rektor son bir neçə il ərzində idarəetmə səmərəliliyinin artırılması və tələbələr üçün onlayn təhsil xidmətinin göstərilməsi məqsədilə Elektron Təhsil Şəbəkəsi və Rəqəmsal Multimedia İnfrastrukturunun yaradılmasında KOICA ilə davamlı əməkdaşlığın uğurlu fəaliyyətindən danışıb. Qeyd edilib ki, proqram çərçivəsində modernləşdirilmiş avadanlıqlarla təmin olunmuş universitet xüsusən pandemiya dövründə müəllim və tələbələrə distant təhsil zamanı daha sabit xidmətlər göstərib.

Xanım Park Kumok isə çıxışı zamanı proqramın uğurlu icrası üçün hər kəsə təşəkkür edib və layihənin universitetdə Təhsil İnformasiya Sistemini daha da inkişaf etdirəcəyinə inandığını bildirib.

Qeyd edək ki, 2015-ci ildə universitet ilə KOİCA arasında "Naxçıvan Dövlət Universiteti üçün Elektron Təhsil Şəbəkəsi və Rəqəmsal Multimedia İnfrastrukturunun Yaradılması" layihəsi başa çatdıqdan sonra 2018-ci ildə "Follow-up" dəstək layihəsi üçün müqavilə imzalanıb.




2018-ci il 8 iyun tarixində isə qarşılıqlı müzakirələrə əsasən hazırlanmış və imzalanmış Anlaşma Memorandumuna əsasən hər iki tərəf 2020-ci il noyabrın sonunadək KOICA-nın dəstəyi ilə "Naxçıvan Dövlət Universitetində qurulmuş sistemin təhlükəsizliyi, sistem funksiyalarının təkmilləşdirilməsi və əlavə funksiyaların yaradılması" və digər məsələlərlə əlaqədar sistemin ümumi təkmilləşdirilməsi planlaşdırılıb.

Məlumat üçün onu da bildirək ki, KOICA tərəfindən layihəyə 144.000 ABŞ dolları məbləğində qrant ayrılıb. Proqram çərçivəsində yaradılmış Akademik İdarəetmə Sisteminin aktual problemləri koreyalı mütəxəssislər tərəfindən dəyərləndirilib və sistemdən səmərəli istifadə və sabitlik üçün köhnəlmiş avadanlıqlar müasir avadanlıqlarla əvəz edilib.

## MEMAR ƏCƏMİ NAXÇIVANİNİN ANADAN OLMASININ 900 İLLİK YUBİLEYİ QEYD EDİLİB

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində "Memar Əcəmi Naxçıvaninin anadan olmasının 900 illik yubileyinə həsr edilmiş sərgi" keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Əcəmi Əbubəkr oğlu Naxçıvani Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi kimi şöhrət qazanıb. Yaratdığı abidələrin üzərindəki kitabələrdə özünü "Əbubəkr oğlu Əcəmi, Naxçıvanlı memar" adlandıran sənətkarın təsviri sənəti, mühəndisliyi memarlıqla sintetik şəkildə birləşdirdiyi aydın görünür.



Rektor Şərqin böyük dühalarının "Şeyxül-mühəndis" (mühəndislərin başçısı) fəxri adı verilən Memar Əcəmi Naxçıvaninin yaradıcılığının sənətşünaslar, memarlar, inşaatçılar, filosoflar, ömürlərini bu sahəyə həsr etmiş müəllimlər və tələbələr üçün qiymətli tövhə olduğunu diqqətə çatdırıb.

Memarlıq fakültəsinin dekanı, professor Cavanşir Zeynalov bu ixtisas üzrə təhsil alan tələbələrin iştirakı ilə təşkil edilən sərgini yüksək qiymətləndirib və gələcəyin memarlarına uğurlar arzulayıb.

Memarlıq kafedrasının müdiri, Memarlıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Qənbərova bildirib ki, Əcəminin yaratdığı ilk məlum abidə Yusif ibn Küseyir türbəsidir. Naxçıvan şəhərinin mərkəzində yerləşən və el arasında "Atababa günbəzi" adı ilə tanınan bu türbə 1162-ci ildə tikilib. Təkcə Azərbaycanda deyil, islam aləmində ən hündür və incə kompozisiyalı türbələrindən sayılan Mömünə xatun türbəsini Əcəmi 1186-cı ildə Naxçıvanın qərb hissəsində ucaldıb. El yaddaşında "Atabəy günbəzi" adı ilə qalan bu türbə Atabəy Şəmsəddin Eldənizin arvadı, Məhəmməd Cahan Pəhləvanın anası Mömünə xatunun şərəfinə tikilib.

Memarlıq üzrə fəlsəfə doktoru, dosent Qadir Əliyev vurğulayıb ki, Marağadakı Göy günbəzdə, Naxçıvan yaxınlığındakı Gülüstan türbəsində, Qarabağlar, Bərdə və Salmas türbələrində, türk memarı Memar Sinanın və İstanbulda ucaltdığı türbələrdə Əcəmi sənətinin ənənələri yaşayır.

Memarlıq və mühəndislik fakültəsinin "Memarlıq" ixtisası üzrə IV kurs tələbəsi Cavid Məmmədov tələbələrin bu cür sərgisini təşkil etdiklərinə görə minnətdarlığını ifadə edib.

Sonda istedadlı tələbələr diplomlarla təltif edilib, tələbələr tərəfindən hazırlanan maketlərin sərgisinə baxış olub.

# COVİD 19: "REALLIQLAR VƏ PROFİLAKTİKA" ADLI VEBİNAR

Naxçıvan Dövlət Universitetində Covid 19: "Reallıqlar və profilaktika" adlı vebinar keçirilib. Vebinar webex platforması və universitetin rəsmi facebook (ndu.edu.az) səhifəsi üzərindən canlı yayımlanıb.

Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin V kurs tələbəsi Nərgiz Babayeva "Covid 19: mənşəyi, etiologiyası, yayılması" adlı çıxışında qeyd edib ki, koronavirus adi soyuqdəymə əlamətlərindən Yaxın Şərq Respirator Sindromu ve Şiddətli Kəskin Respirator Sindrom kimi daha ciddi patologiyalara qədər çeşidli xəstəliklərə səbəb olan böyük bir virus fəsiləsidir. Səthlərində çubuqşəkilli çıxıntılara malikdirlər. Bu çıxıntılar Latın dilində "tac" mənasını verən "corona" sözü ilə adlandırılaraq viruslara Koronavirus (taclı virus) adı verilib.

"Covid 19: kliniki əlamətləri və differensial diaqnostikası" adlı çıxışında Naxçıvan Dövlət Universitetinin həkim-rezidenti Səidə Novruzova qeyd edib ki, infeksiyanın əsas göstəriciləri tənəffüs simptomları, hərarət, öskürək və təngnəfəslikdir. Bu yoluxma hadisələri qızdırma, təngnəfəslik və ikitərəfli ağciyər pnevmoniya infiltrasiyası ilə müşahidə olunub və indiyə qədər bildirilən ölüm halları daha çox yaşlı şəxslərdə olub.

Təcili Tibb Mərkəzinin baş həkimi Vüsal Əliyev "Covid 19 –laborator diaqnostikası" adlı çıxışında vurğulayıb ki, COVID-19 xəstələrin dəyərləndirilməsində klinik və laborator parametrlər daha həssasdır. Ağciyərlərin kompyuter tomoqrafiyası, testi neqativ COVID-19 xəstələrində, erkən dövrdə həssas radioloji müayinə metodudur. Təsdiqlənmiş COVID-19 yüngül simptomları olan ancaq ağırlaşma riski olmayan xəstələr və COVID-19 testi neqativ, ancaq yüngül simptomlu xəstələrə KT müayinəsi məsləhət görülmür. Klinik simptomlarda ağırlaşma, COVID-19-un proqressiyası, pulmonar emboliya və ya əlavə olaraq bakterial pnevmoniya kimi ikincili kardiopulmonar anormallıqlar və ya COVID-19-un miokardı zədələməsinə bağlı olaraq ikincili ürək çatışmazlığını dəyərləndirmək üçün KT müayinəsi məsləhət görülür.

"Covid - 19: şüa diaqnostikası" adlı çıxışında Naxçıvan Muxtar Respublikası Xəstəxanasının həkim radioloqu Aysel Quliyeva koronavirusa yoluxan şəxslərdə rast gəlinən əlamətlər, xəstəliyin simptomsuz gedişi, nisbətən yaşlı və yanaşı xəstəliyi olan şəxslərdə baş verə biləcək ağırlaşmalar haqqında məlumat verib. COVİD-19 virusunun diaqnostikası, aparılan testlərin yoluxma haqqında informativlik dərəcəsi və s. bu kimi vacib məsələlər haqqında danışan həkim koronavirusa yoluxan şəxslərdə rast gəlinən ağciyər əlamətləri, xəstəliyin gedişində hansı instrumental diaqnostika vasitələrindən istifadə edilməsi, "Buzlu şüşə" görüntüsü, protokola uyğun olmayan formada özünü evdə müalicə edərək ağırlaşan şəxslərdə rast gəlinən ağırlaşmalar zamanı ağciyərdə baş verən dəyişikliklər haqda ətraflı məlumat verib.

Naxçıvan Dövlət Universitetinin həkim-rezidenti Şölə Quliyeva "Covid 19: ambulator müalicəsi" adlı çıxışında qeyd edib ki, COVID-19 diaqnozlu xəstələrin müalicəsi hal-hazırda olkəmizdə iki istiqamətdə həyata keçirilir, ambulator və stasionar şəkildə. Ambulator xəstələrin müraciətlərində, əsasən yüksək hərarət, öskürək, boğazda qıcıqlanma, əzələ -oynaq ağrıları, ümumi halsızlıq qeyd edilir. Ümumiyyətlə, xəstəliyin simptomları adətən xəstəlik günü ilə uyğunluq göstərir. Xəstəliyin 2-ci həftəsi daha ciddi diqqət edilməsi lazım olan həftədir. Bildirilib ki, test nəticələri müsbət çıxan xəstələrin siyahıları tutulur. Bu xəstələrlə daha sonra telefonla əlaqə saxlanılır və mövcud vəziyyətləri ilə bağlı sorğular həyata keçirilir. Qeyd etmək lazımdır ki, reseptlə təchiz olunmuş dərmanlar birbaşa xəstələrin yaşadıqları yerlərə çatdırılır. Pasiyentlər onları 15-20 gün ərzində qəbul edir. Sahə həkimləri gündə iki dəfə onlarla əlaqə saxlayıb, dərman qəbuluna nəzarət edirlər. Yuxarıda sadalanan, bu günə qədər görülmüş bütün tədbirlər xəstəliyi evdə asanlıqla keçirən və tibb müəssisələrinə baş çəkməyən pasiyentlərin tezliklə sağalması üçün zəruri şərait yaradıb və bununla digərlərin yoluxma təhlükəsini azaldıb. İndi biz COVID-19 diaqnozlu pasiyentlərin xəstəxanalara yerləşdirilmə sayında ciddi azalma müşahidə edirik, ağır xəstələrin sayı azalmaqdadır.

Naxçıvan Muxtar Respublikası Xəstəxanası Pulmonologiya şöbəsinin müdiri Dilarə Baxşəliyeva "Covid - 19: stasionar müalicəsi" adlı çıxışında qeyd edib ki, daha ciddi simptomları - məsələn, hərəkətlə artan və ya sakitlik zamanı yaranmış təngnəfəslik, bogulma, saturasiyanın düşməsi halları qeyd edilən xəstələr stasionar müşahidəyə alınır. Xəstəliyin, xüsusilə, virus infeksiyası olduğu unudulmamalıdır. Viruslar antibiotiklərlə müalicə edilmir. Əgər koronavirusun müalicəsi antibiotiklərlə mümkün olsaydı, bugün pandemiya qorxulu xəstəlik olmaqdan çıxardı. Ehtiyac və göstəriş olmadan antibiotiklərlə müalicəyə başlanması, profilaktik məqsəd adı altında qəbulu yolverilməzdir. Virus infeksiyaları antiviral preparatlarla müalicə olunur. Vurğulanıb ki, xəstənin günlük izlənməsi, yaranmış hər bir kiçik simptomun arasdırılması, immun cavabının balanslaşdırılması ən önəmli müalicə taktikasıdır.




"Covid 19: profilaktikası, vaksinasiya" adlı çıxışında Naxçıvan Dövlət Universiteti "Müalicə işi" ixtisası üzrə IV kurs tələbəsi Suada Vahabova bildirib ki, vaksinin yaradılması ancaq başlanğıcdır və əsas məsələ isə onun uğurlu tətbiq edilməsidir. Vaksinin yüksək effektivliyi 80-90 faizdir. Heç bir vaksin 100 faizli mütləq nəticəyə zəmanət vermir. Vaksinə qoyulan tələblər yalnız onun effektivliyini deyil, həm də maksimum təhlükəsizliyini təmin etməlidir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# AKADEMİK YUSİF MƏMMƏDƏLİYEVİN 115 İLLİK YUBİLEYİ QEYD EDİLİB

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində Akademik Yusif Məmmədəliyevin 115 illiyinə həsr olunmuş elmi seminar keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev bildirib ki, Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayanda görkəmli alim Yusif Məmmədəliyevin adını daşıyırdı. Diqqətə çatdırılıb ki, Azərbaycan elminin təşkili, dünya elminə inteqrasiyası sahəsində əvəzsiz xidmətlər göstərmiş Yusif Məmmədəliyevin özündən sonra qoyduğu zəngin irs və ideyalar onu daim yaşadacaqdır.



"Kimya kafedrasının dosenti, kimya üzrə fəlsəfə doktoru Akif Əliyev "Dahi kimyaçı alim" mövzusunda çıxışında bildirib ki, Akademik Yusif Məmmədəliyev Azərbaycanda neft kimyasının əsasını qoyub. Vurğulanıb ki, alim öz uzaqgörənliyi ilə dövrümüzdə tədqiqinə başlanan bir çox məsələlər haqqında əvvəlcədən elmi mülahizələr və hipotezlər verib, bu istiqamətlərin gələcək perspektivlərini illər öncə müəyyənləşdirə bilib.

"Yarıda qalmış ideyaların böyük sahibi" adlı çıxışında AMEA-nın müxbir üzvü Əliəddin Abbasov qeyd edib ki, akademik əsl vətənpərvər kimi hələ o dövrdə Azərbaycanda Əlyazmalar Fondunun yaradılmasına, Qobustan abidələrinin qorunub saxlanılmasına, qədim Azərbaycan eposu "Kitabi-Dədə Qorqud" dastanının, Qafqaz Albaniyasının tarixinin tədqiqinə, "Nizamişünaslıq" elminin əsasının qoyulmasına nail olub. Bununla yanaşı, alim sovet hakimiyyəti dövründə Azərbaycan dilinin dövlət dili kimi qəbul olunması və geniş istifadəsi üçün bütün qüvvəsi ilə çalışıb.

"Kimya" kafedrasının müdiri Sevinc Kərimova "Akademik Yusif Məmmədəliyevin pedoqoji fəaliyyəti" adlı çıxışında vurğulayıb ki, misilsiz xidmətlərinə görə Y.Məmmədəliyev Azərbaycanın ilk kimyaçı akademiki, Azərbaycan Dövlət Universitetinin rektoru, iki dəfə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olub.

Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı, kimya üzrə fəlsəfə doktoru, dosent, Şəmil Mahmudov "Akademik Yusif Məmmədəliyev və Nobel mukafatı" adlı çıxışında bildirib ki, akademikin dünya elminə daha bir misilsiz töhfəsi strateji raketlər üçün 1950-ci ildə yaratdığı duru yanacaq idi. Yerin ilk peyki, Qaqarinin uçuşu - bütün bunlar Bakı nefti, Azərbaycanın neft kimyası məktəbinin yaradıcıları olan Y.H.Məmmədəliyevin elmdə qəhrəmanlığı və onun həmfikirlərinin fədakar əməyi sayəsində baş tutub. Yusif Məmmədəliyevin Nobel mükafatına namizədliyi 1957-ci il dekabrın 29-da Sov.İKP MK Siyasi Bürosunun iclasında müzakirəyə çıxarılsa da, üç yüksək vəzifəli erməninin fitvası ilə Yusif Məmmədəliyevin Nobel mükafatına namizədliyinin irəli sürülməsi baş tutmayıb.

Kimya üzrə fəlsəfə doktoru Pərvin Quliyev "Faşizm uzərində qələbədə Akademik Yusif Məmmədəliyevin rolu" adlı çıxışında qeyd edib ki, 1935-ci ildən Y.Məmmədəliyev sistemli olaraq neft qazlarının xlorlaşması, bromlaşması, ftorlaşması, onların elmdə, texnikada, sənayedə, tibbdə və başqa sahələrdə istifadəsinə nail olunması istiqamətində araşdırmalar aparıb. O, təbii və neft qazlarının tərkibinin təyini, etilendən etil spirtinin alınması, süni kauçukun, hidrogenin alınması və onun yanacaq kimi istifadəsi ilə bağlı fundamental tədqiqatların müəllifidir. Akademik təkcə qazların deyil, aromatik karbohidrogenlərin də xlorlaşmasında mühüm nəticələrə imza atan ilk alimlərdəndir. Həmçinin aviasiya və raketlər üçün yüksən oktanlı müxtəlif növ yanacaqların yaradılması, tankəleyhinə maddələrin alınması da məhz onun adı ilə bağlıdır.

**Günay Hüseynova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# "KİTABİ-DƏDƏ QORQUD" DASTANININ 1320 İLLİK YUBİLEYİ

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında "Kitabi-Dədə Qorqud" dastanının 1320 illik yubileyi ilə əlaqədar kitab müzakirəsi keçirilib. Müzakirəni giriş sözüylə açan Elmi Kitabxananın direktoru Fariz Əhmədov qeyd edib ki, "Kitabi-Dədə Qorqud" Azərbaycanın ana kitabı, ümumtürk mədəniyyət abidəsi, dünya mədəniyyət xəzinəsinin nadir incilərindəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamına əsasən oxunması tövsiyyə edilən ən qiymətli əsərlərdəndir. Ulu öndər Heydər Əliyevin 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında imzaladığı Fərmana əsasən yubileyin yüksək səviyyədə keçirilməsi milli-mənəvi irsin qorunması, yaşadılması və gələcək nəsillərə çatdırılması baxımından mühüm hadisə kimi dəyərləndirilib.



Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərov bildirib ki, YUNESKO-nun 1998-ci ili "Dədə Qorqud ili" elan etməsi, dastanın 1300 illiyinin belə bir nüfuzlu beynəlxalq təşkilat tərəfindən silsilə tədbirlərlə möhtəşəm şəkildə qeyd olunması qədim tarixə, zəngin folklor və etnoqrafiyaya malik olmamızın təsdiqi idi. Diqqətə çatdırılıb ki, ölkə başçısı cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il 20 fevral tarixli Sərəncamı tarixi mədəni irsimizin yaşadılmasına mühüm töhfə kimi dəyərləndirilməlidir.

Müzakirədə diqqətə çatdırılıb ki, 1999-cu ildə Naxçıvan şəhərində Dədə Qorqud parkı yaradılması, Dədə Qorqudun heykəlinin ucaldılması, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixdə imzaladığı Sərəncamla "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin diyarımızda da geniş qeyd edilməsi, həmçinin dastanın gəncliyə oxunması zəruri ədəbiyyat kimi tövsiyə olunması muxtar respublikada aparılan milli-mənəvi irsə verilən yüksək qiymətin təzahürüdür.

**Elmir Tağıyev**
***Junalistika ixtisası üzrə II kurs tələbəsi***

# UNİVERSİTETİN RƏSSAM TƏLƏBƏLƏRİ MÜSABİQƏNİN QALİBİ OLUBLAR

Yeni Azərbaycan Partiyası Naxçıvan MR Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, Gənclər və İdman Nazirliyinin və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə ali və orta ixtisas təhsili müəssisələri tələbələri arasında "Qarabağ Azərbaycandır!" adlı rəsm müsabiqəsi keçirilib. Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Təsviri incəsənət ixtisası üzrə gənc rəssamların da qatıldığı müsabiqədə 26 müəllifin 40 rəsm əsəri nümayiş olunub. Rəsm əsərlərində vətənpərvərlik hisslərinin tərənnümü və şəhidlərin əziz xatirəsinə ehtiram əlaməti əks olunub.



Bu münasibətlə Bəhruz Kəngərli adına Sərgi Salonunda keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov, Rəssamlar Birliyinin baş fond mühafizi Nizami Alıyev, Gənclər və İdman Nazirliyinin əməkdaşı İlahə Haqverdiyeva çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Azərbaycan ordusunun qazandığı qələbənin timsalında Ali Baş Komandanın sarsılmaz qətiyyəti və xalqla ordunun birgəlik nümayiş etdirməsi, igid oğullarımızın yüksək vətənpərvərliyi dururdu. Vurğulanıb ki, bu cür müsabiqələrin təşkil edilməsi gənclərin vətənpərvərlik hisslərinin yüksəldilməsi və şəhidlərimizin əziz xatirəsini daim uca tutub gələcək nəsillərə çatdırmaq kimi ən ali bir vəzifəni daşıyır.

Müsabiqənin sonunda Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Türkan Əsədova və Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi İnci Qənbərova müsabiqənin qalibi olublar. Naxçıvan Dövlət Universitetinin tələbəsi Fərqanə Seyidova, Naxçıvan Tibb Kollecinin tələbəsi Ruhanə Bədirova II, Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Gülnarə Kərimova, Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Elnur Tağıyev III, Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Könül Kazımlı isə həvəsləndirici yerə layiq görülüblər.

Müsabiqənin qalibləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən müxtəlif hədiyyələr və diplomlarla təltif olunublar.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## “PEDAQOJİ TEXNOLOGİYALAR” ADLI DƏRS VƏSAİTİNİN TƏQDİMATI




Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqogika üzrə elmlər doktoru Müslüm Nəzərov və "Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi" kafedrasının dosenti Nizami Quliyevin həm müəllifi olduğu “Pedaqoji Texnologiyalar” adlı dərs vəsaitinin təqdimat mərasimi olub. Tədbiri giriş sözü ilə açan universitetin Pedaqoji fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev cəmiyyətin inkişafında təhsilin böyük rol oynadığını vurğulayıb. Müasir dövrümüzdə texnologiyaların inkişafının mühüm əhəmiyyət kəsb etdiyini, pedaqoji sistemin yenilənməsinin çox vacib və aktual ideya olduğunu diqqətə çatdırıb. Eyni zamanda təqdim olunan kitabın tələbələr üçün əhəmiyyətindən danışıb.

“Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi” kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Mətanət Quliyeva pedaqoji prosesdə baş verən yenilikləri diqqətə çatdırıb. Təqdim olunan bu dərs vəsaiti oxucuda şəxsi sosial təcrübə əldə etmək qabiliyyəti, cəmiyyətdə öz yerini tapmaq bacarığını formalaşdıraraq təhsil problemlərinin birgə öyrənilməsinə yönəldiyi qeyd edilib. Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, “Pedaqoji Texnologiyalar” kitabında təlim prosesinə müxtəlif yanaşmalar və tədris prosesində uğurla işləməsi üçün pedaqoji texnologiyaların mahiyyəti, quruluşu, funksiyaları, prinsipləri və şərtləri göstərilib.

“Pedaqogika və psixologiya” kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Vahid Rzayev pedaqoji texnologiyanın mahiyyətindən, əvvəlcədən verilmiş xarakteristikalar üzrə kompüter təlimi üçün işlənib hazırlanmış optimal didaktik proseslərdən danışıb. Təqdim edilən “Pedaqoji Texnologiyalar” kitabına nəzər salan Vahid Rzayev dərs vəsaitində informasiya texnologiyalarının təkcə məlumat əldə etməyi asanlaşdırdığı deyil, həmçinin təhsil fəaliyyətinin dəyişkənliyinə, onun fərdiləşdirilməsinə və fərqləndirilməsinə açılan imkanlara toxunulduğunu vurğulayıb.

Sonra Texnologiya ixtisası üzrə III kurs tələbəsi Elazər Yəhyalı çıxış edərək bu kitabın tələbələrin pedaqoji biliklərin öyrənilməsində mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Universitetin son illərdə qazandığı nailiyyətlər təhsilimizə göstərilən yüksək diqqət və qayğının bəhrəsidir-deyən müəllif universitet mühitində yaradıcı insanların elmi-pedaqoji fəaliyyəti üçün göstərilən dövlət dəstəyinə görə minnətdar olduğunu bildirib.

**Telli Mustafayeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## “JURNALİSTİKA VƏ XARİCİ ÖLKƏLƏR ƏDƏBİYYATI” KAFEDRASINDA ELMİ-TƏDQİQAT İŞLƏRİNİN MÜZAKİRƏSİ KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetində elmi-tədqiqat işlərinin müzakirəsi keçirilib. Jurnalistika və xarici ölkələr ədəbiyyat kafedrasında təşkil edilən müzakirədə kafedranın dosenti İman Cəfərovun ““Molla Nəsrəddin” jurnalında şərq-qərb ədəbi janrlarının kontaminasiyası” və Xumar Məmmədovanın “Akira Matsunaqa və Azərbaycan” mövzusunda elmi-tədqiqat işləri müzakirə edilib.



Kafedranın dosenti İman Cəfərov “Molla Nəsrəddin jurnalında şərq-qərb ədəbi janrlarının kontaminasiyası” adlı tədqiqat işində qeyd edib ki, jurnal hər zaman öz səhifələrində beynəlxalq hadisələrə münasibət bildirib, imperialist dövlətlərin müstəmləkəçilik siyasətini tənqid edib, Şərq xalqlarının azadlıq uğrunda mübarizəsinə rəvac verirdi. Jurnalın şöhrəti artaraq, konkret coğrafi məkan çərçivəsindən kənara çıxıb. Rusiya, Qafqaz və Orta Asiyanın hər yerinə yayılaraq türk və müsəlman xalqlarının ictimai-siyasi inkişafında əhəmiyyətli rol oynayıb, habelə İran, Türkiyə, Misir, Hindistan, Mərakeş kimi ölkələrin xalqlarının sosial-mədəni və siyasi tərəqqisinə böyük təsir göstərib. Jurnalın redaktoru, böyük satirik və maarifçi Cəlil Məmmədquluzadə qarşısına cəmiyyətin nöqsanlarını oxuculara göstərmək və onları yaxşı həyat uğrunda mübarizəyə təşviq etmək məqsədi qoymuşdu.

Xumar Məmmədova “Akira Matsunaqa və Azərbaycan” adlı tədqiqat əsərində bildirib ki, tədqiqatlarının əsas mövzusu türk xalqlarının tarixi və Azərbaycan dili ilə bağlı olan Akira Matsunaqa Bəkir Çobanzadənin irsi ilə bağlı elmi araşdırmalar aparır. Vurğulanıb ki, Akira Matsunaqa, həmçinin Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında öz dəstəyini nümayiş etdirib və Yaponiyanın hökumət orqanlarının cəmləşdiyi Tokionun Naqataço rayonunda yerləşən konfrans mərkəzində Azərbaycanın bu ölkədəki səfiri Gürsel İsmayılzadə “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son durum” mövzusunda keçirilən brifinqdə iştirak edib. Diqqətə çatdırıb ki, Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarını dərhal və qeyd-şərtsiz tərk etməlidir. Professor çıxışlarında qeyd edib ki, Azərbaycan beynəlxalq aləmlə sıx münasibətlər quraraq dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Həmçinin Akira Matsunaqa Azərbaycan-Yapon və Yapon-Azərbaycan dilində lüğət də tərtib edib.

Elmi tədqiqatlar əlaqələndirilməsi bölməsinin müdiri Rza Məmmədov və bölmə əməkdaşları tədqiqat əsərlərini qənaətbəxş hesab ediblər.

Sonda kafedra əməkdaşlarının mövzularla əlaqədar sualları cavablandırılıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## TEXNOPARKLAR İNNOVASİYAYÖNÜMLÜ VƏ BİLİYƏ ƏSASLANAN İQTİSADİYYATIN QURULMASINDA MÜHÜM ROL OYNAYIR

Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sahibkarlıq və sənayenin inkişafında da böyük uğurlar qazanılıb. Bu müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, sahibkarlar tərəfindən yeni iş yerləri açılıb, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub.

Müasir dünyada rəqabətə tab gətirmək üçün ilk növbədə təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına arxalanmaq lazımdır. Bunlarla yanaşı onu da qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində innovasiya yönümlü elmi laboratoriyaların və kiçik müəssisələrin (sahibkarların) formalaşması və inkişaf etməsi üçün texnoloji zonaların təşkili çox vacibdir.

Kiçik və orta biznesin inkişaf etdirilməsi dünyanın aparıcı ölkələrinin diqqət mərkəzindədir. Ali təhsil müəssisələrinin elmi potensialı ilə innovasiya təyinatlı kiçik və orta biznesin imkanlarının inteqrasiya olunmasının və elmi nəticələrin kapitallaşdırılmasının ən səmərəli üsullarından biri innovasiya təyinatlı texnoloji mərkəzlərin, texnologiyaların transfer mərkəzlərinin, texnoparkların yaradılmasıdır.

Dünya təcrübəsinin təhlili göstərir ki, texnoparkların yaradılmasında şərti olaraq üç model əsas götürülür: Amerika, Avropa və Asiya modelləri. Amerika modelinin ən tipik nümunəsi dünyada ilk texnopark - Stenford Universitetində yaradılmış "Silikon vadisi"dir. Stenford texnoparkı böyüklüyünə görə bu gün də liderdir.

Azərbaycanda ali təhsil müəssisələrində texnoparkların yaradılması yeni təcrübədir.

Texnoparkların əsas struktur vahidi mərkəzlər hesab olunur. Buraya innovasiya-texnoloji mərkəz, tədris mərkəzi, məsləhət mərkəzi, informasiya mərkəzi, marketinq mərkəzi, sənaye mərkəzi, maliyyə-sığorta mərkəzi, mühasibat-audit mərkəzi, strateji tədqiqat mərkəzi daxildir. Milli iqtisadiyyatın yeni sahələrinin formalaşmasında və rəqabətqabiliyyətli olmasında texnoparkların böyük rolu vardır. Məsələn, ABŞ, Hindistan, Çin və s. kimi ölkələr İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) sahəsində dünya səviyyəsində qabaqcıl olmalarına görə məhz texnoparklara minnətdardırlar.

Müasir dövrdə informasiya cəmiyyətinin biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında texnoloji biliklərin mərkəzinə çevrilən universitetlər mühüm rol oynadığından ali məktəb texnopark vəhdətinin yaradılması da son illər geniş inkişaf tapmışdır. Belə texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan müəssisələrin yaranmasına və onların inkişafına təşəbbüs göstərmək məqsədi ilə qurulur. Universitet texnoparkda fəliyyət göstərən müəssisələrə innovativ elmi nəticələrin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir. Bu proseslərdə bütün yanaşmalar təşəbbüskarlıq və müəllif hüquqlarının qorunması müstəvisində həyata keçirilir.

Dünya standartlarına əsasən, texnoparkların əsas hədəfləri universitetlərin təhsil, tədris və araşdırma fəaliyyətlərini dəstəkləyərək daha səmərəli nəticələr əldə etmək, sənayenin rəqabət gücünü artırmaq, yüksək texnologiyalara əsaslanan regional və iqtisadi inkişafı sürətləndirməkdir.

Bu gün milli iqtisadiyyatın inkişaf bazasının yüksək texnologiyalar əsasında qurulması istiqamətində ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu siyasət həyata keçirilir. Yüksək texnologiyalar biliyə söykənən iqtisadiyyatın yaranması istiqamətində irəli atılmış əhəmiyyətli addımdır. Bu istiqamətdə fəaliyyətin əyani nümunəsi Sumqayıt texnoparkıdır.

Bundan başqa, Prezident İlham Əliyevin bu ilin sentyabrın 13-də Şərur Sənaye Məhəlləsinin yaradılması və “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında



dəyişiklik edilməsi barədə imzaladığı Fərman Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına xidmət edir.

Beləliklə, texnoparklar yeni ideyaların formalaşmasından başlayaraq onların tətbiq olunması və inkişaf etdirilməsinədək hərtərəfli şəraitin olduğu innovativ fəaliyyətləri təmin edən məkandır. Başqa sözlə, texnoparklar insan kapitalını sürətlə inkişaf etdirən, yüksək texnologiyaları istehsal edən qurumlardır. Belə qurumlar universitetlərin tərkibində olduqda daha aktiv fəaliyyət göstərə bilir.

Yüksək texnologiyaların inkişafının dünya təcrübəsi göstərir ki, texnoparkın səmərəli fəaliyyəti onu elm, sənaye və ali təhsil müəssisələrinin kompakt yerləşdiyi yaşayış məntəqələrində - texnopolislərdə təşkil etmək məqsədəuyğundur.

Universitetlərin professor-müəllim, alim, tələbə və elmi-texniki heyəti kifayət qədər elmi nəticələrə, ixtira və patentlərə malikdir, aktiv elmi-texniki innovasiya fəaliyyəti həyata keçirirlər. Universitetlər elmi-texniki və innovasiya fəaliyyətində geniş beynəlxalq əməkdaşlıq və beynəlxalq layihələrdə iştirak etmək təcrübəsinə malikdirlər. Universitetlər xırda və orta sənaye müəssisələri ilə birgə geniş elmi-texniki və innovasiya fəaliyyəti həyata keçirirlər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 12 iyun 2002-ci il tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinə yüksək özünüidarə statusu, muxtariyyət hüququ verilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müxtəlif vaxtlarda (1974, 1992 və 1999-cu illərdə) 4 dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasının və Konservatoriyasının açılışında iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov universitetin inkişafına daim böyük qayğı göstərir.

Bütün bunlar deməyə əsas verir ki, Naxçıvan Dövlət Universiteti uğurlu tarixi inkişaf yolu keçib. 1967-ci ildə 3 ixtisas və 103 tələbə ilə fəaliyyətə başlayan universitetdə hazırda 6 minə yaxın tələbə təhsil alır. Bu gün Naxçıvan Dövlət Universitetində 63 ixtisas üzrə bakalavr, 76 ixtisas üzrə magistr, 24 ixtisas üzrə rezident, 60 ixtisas üzrə doktorant və dissertant hazırlığı aparılır. 4 ixtisas üzrə distant təhsil həyata keçirilir. Universitetdə dissertasiya şurasının, həmçinin birləşmiş dissertasiya şurasının fəaliyyət göstərməsi də fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə tədqiqatçı alimlərin yetişməsində əhəmiyyətli rol oynayır. Əgər 1996-cı ildə Naxçıvan Dövlət Universiteti ölkəmizdə 37 universitet arasında 36-cı yerdə idisə, 2016-2017-ci tədris ilində yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə ölkəmizdəki ali təhsil müəssisələri arasında birinci yerə layiq görülüb.

Tədris prosesini Avropa standartları və Azərbaycan təhsil qanunvericiliyinə uyğun quran universitetdə 2015-2016-cı tədris ili daha yaddaqalan olmuşdur. Cənubi Koreyanın KOICA təşkilatı ilə birlikdə Naxçıvan Dövlət Universiteti üçün “Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsinin açılış mərasiminin keçirilməsi və Elektron Universitetin fəaliyyətə başlaması Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən irihəcmli və əhəmiyyətli layihələrdən biri kimi tarixə düşmüşdür. Elektron təhsil, Onlayn Sənəd dövriyyəsi, Akademik İdarəetmə və s. kimi təhsilinin idarəedilməsi modellərini özündə birləşdirən Elektron Universitet nəinki təhsilin elektron vasitələrlə həyata keçirilməsini, eyni zamanda elektron imtahanları da əhatə edir.

Naxçıvan Dövlət Universitetinin kitabxanası ölkədə ayrıca korpusda yerləşən yeganə ali məktəb kitabxanasıdır. 100 minə yaxın kitabxana fondu olan kitabxanada “PROLİB” avtomatlaşdırılmış Kitabxana-İnformasiya İdarəetmə sistemi vasitəsilə bu günədək 5000 adda 30000 sayda kitabın elektron kataloqu yazılmış, təmnətli elektron versiyası hazırlanaraq oxucuların istifadəsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə təməli qoyulan “Startap Naxçıvan” hərəkatı isə Naxçıvan Dövlət Universitetində peşəkar mütəxəssis hazırlığına, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasına xidmət edir.

"Muxtar respublikada innovasiyayönümlü iqtisadiyyata keçid, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan xidmət sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılması və nəticələrinin sənayedə tətbiqi ali təhsil müəssisələrində müasir komplekslərin yaradılmasını zərurətə çevirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dekabrın 14-də Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında Sərəncamı yeni elmtutumlu texnologiyaların işlənməsi və tətbiqi, yeni texnologiyaların işlənməsi və qlobal bazara çıxarılması, layihələrin inteqrasiyası nanoüzrə ixtisaslaşdırılmış kadrların hazırlanması sahəsində böyük töhfə verəcəkdir.

**Hüseyn Əsgərli**
***İnformasiya Kommunikasiya Texnologiyaları və Elektron təhsil şöbəsinin müdiri***

# BUNDAN SONRA HEÇ KİM BİZİ ÖZ TORPAĞIMIZDAN ÇIXARA BİLMƏZ!

## HƏMRƏYLİKDƏN DOĞAN ZƏFƏR

Həmrəylik duyğular, düşüncələr və ortaq maraqlar baxımından bir milləti təşkil edənlərin qarşılıqlı əlaqəsidir. Bir şeyi reallaşdırmaq üçün hislərin, fikirlərin və istəklərin birliyini göstərməyin adıdır Həmrəylik.

Sosial həmrəylik cəmiyyətin qurum və təşkilatlarının ortaq dəyərlərdə birləşməsi və birlikdə hərəkət etməsidir. İnsan təbiətinə görə sosial varlıqdır. Tək yaşamaq mümkün deyil, birlikdə yaşamağın bir zərurəti olan həmrəylik sayəsində insanlar bir-birlərinə kömək etməyi və birlikdə iş görməyi öyrənirlər. Həmrəylik sayəsində insanlar daha çox və daha sürətli şəkildə istədiklərini əldə edə bilərlər. Atalarımız "Bir əlin nəyi var, iki əlin səsi var" deyərək birlik, həmrəylik və həmrəyliyin vacibliyini vurğulayıblar.

Sosial həmrəylik cəmiyyətin ümumi dəyərlərdə və birlikdə fəaliyyət göstərdiyi qurum və təşkilatlarla birləşməsi və birlikdə hərəkət etməsidir. Sosial həmrəylik həyatımızda çox əhəmiyyətli bir yer tutur. Çünki yaxşı yaşamağımıza kömək edəcək hərəkətlərdən biridir. Həmrəylik sayəsində cəmiyyətlər və ölkələr inkişaf edir. Həmrəylikdən yaranan birliklə azadlığa qovuşub, bütnləşmək olur.

Azərbaycan xalqı tarixdə min illər boyu bir çox müharibələr, inqilablar, hərbi müdaxilə və zülmlər altında böyük ağrı və faciələr yaşamalı oldu. Bu çərçivədə 1828-ci ildə Rusiya ilə İran arasında imzalanan Türkmənçay müqaviləsinə görə, Azərbaycan Cənubi və Şimali Azərbaycan olaraq ikiyə bölündü. Cənubi Azərbaycan İran tərəfindən, Şimali Azərbaycan isə Ruslar tərəfindən işğal edildi. Bu müddət ərzində Azərbaycanlıların bir qismi evlərindən qovuldu və sürgünlər nəticəsində bir-birlərindən ayrı qaldılar. Bu ağrılı hadisələrdən sonra öz torpaqlarından ayrı düşənlər çox oldu .Türkməncay müqavilosi ilə Azərbaycan xalqını bir-birindən ayırmaq üçün Araz çayı boyunca hər iki tərəfə tikanlı məftillər çəkildi. İkiyə parçalanmış azərbaycanlıları bir-birindən



uzaq tutmaq və qardaşlıqlarını unutdurmaq üçün İranda yaşayan soydaşlarımızı azərbaycanlı adlandırılması qadağan edildi . Lakin heç bir qadağa bizim həmrəy olmaq arzumuzu boğa bilmədi .1989-cu ildə Naxçıvanda insanların həmrəylik arzusu nəticəsində İranla aramızda olan tikanlı məftillər dağıdıldı.Bu böyük bir tarixi hadisə olmaqla yanaşı bizim bütün dünyaya eyni millətdən olmağımızı hayqırmağımız və soydaşlarımızla birləşmək arzumuzun ifadəsiydi. Bu tarix birləşmək ,bütövləşmək istəyimizin simvoluna çevrildi.

Xalqın ürəyindəki bütövləşmək eşqini görə bilməyən mənfur, qaniçən qonşumuz Ermənistan 70 illik əsarətdən sonra yenicə müstəqillik qazanmış xalqımızın dövlətin ən böyük gücü sayılan ordusunun formalaşmasından istifadə edərək öz havadarlarının köməyilə 1992- ci ildə tarixi Azərbaycan torpaqlarına qarşı soyqırım və işğalçılıq siyasəti başladaraq torpaqlarımızın 20 faizini işğal etdi. Amma onlar unutmuşdular ki, İranda yaşayan soydaşlarımızla bizi ayırmaq üçün aramıza çəkilən 161 illik tikanlı məftili həmrəy olub sökən millət heç bir zaman torpaqlarının işğal altında qalmasına razı olmayacaq. Belə də oldu.

Gücümüzü bərpa etmək üçün bizə sadəcə zaman lazım idi. 90-cı illərdə Ulu Öndər Heydər Əliyevin ətrafında birləşərək Azərbaycanı məhv olmaqdan xilas edən xalq 27 sentyabrda da Müzəffər Ali Baş Komandanın ətrafında həmrəy olub düşmənimizə qarşı "dəmir yumruq" əməlyatını başladaraq dünyaya həmrəylikdən doğan zəfər qələbəmizi nümayiş elətdirdi. Biz dövlət-xalq-ordu olaraq həmrəy olub 30 illik həsrətimiz, qürurumuz, tariximiz olan Qarabağla bütövləşdik. Bu həmrəyliyimizlə təkcə torpağı torpağa birləşdirmədik, biz dünyanın qarşısında səssiz qaldığı Xocalının qisasını aldıq, torpaq uğrunda canlarından keçən şəhidlərimizin qanını yerdə qoymadıq. Biz həmrəy olaraq bir xalqın ən alınmaz qalası olan azadlığını inşa etdik. Bu gün al-qırmızı rəngini şəhidlərimizin qanından alan bayrağımız həmrəyliyimizin gücü ilə Qarabağın hər qarşında məğrur-məğrur dalğalanır. Bu il 31 dekabır Dünya Azərbaycanlılarının həmrəylik gününü torpağımız, şərəfimiz, tariximiz, gələcəyimiz üçün canlarından keçən şəhidlərimizə üreyimizdə daşıdığımız böyük kədər və eyni zamanda onların bizə yaşatdığı azadlıq sevincinin verdiyi qürur hissi ilə qeyd edirik. Həmrəyliymiz daim və möhkəm olsun, məğrur xalqımız! Həmrəylikdən doğan Zəfərin mübarək olsun, Azərbaycanım!

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## HƏR ŞEY VƏTƏN ÜÇÜN DEMƏYİ BACARAN İGİDLƏR



30 il əvvəl yaşanan əzablar artıq başa çatdı. Qəhrəman qardaşlarımız döyüş meydanında gücünü göstərdi və mərdliklə vuruşaraq qələbə qazandı. Atalar sözündə deyildiyi kimi "Pis günün ömrü az olar". Bəli, artıq biz pis günləri arxada qoyduq. Artıq şəhidlərin qanı ilə qazandığımız zəfər mübarizəsini qeyd edirik.

Qəhrəman vətən oğullarımızın sayəsində qazandığımız qələbədə hər igidin, qeyrətli vətən oğlunun imzası oldu. Qarabağ döyüşlərində şücaət göstərərək düşmənə qan udduran igid, mərd oğullarımızdan biri də Naxcıvan Muxtar Respublikası Şərur rayonundan olan vətənin igid oğlu Qəribov Bəxtiyar Əkrəm oğludur. Gəlin, qəhrəmanımızı yaxından tanıyaq.

***Sizə ilk sualımı belə ünvanlamaq istəyirəm. Qarabağın azadlığı uğrunda aparılan müharibəyə sizi də aparacaqlarını deyəndə nə hisslər keçirdiniz?***

- Uşaqlığımdan bəri o torpaqlara getməyi arzulayırdım. Ora döyüşə gedəcəyimi eşidəndə isə hər bir hərbçi kimi mən də çox sevindim və qürurlandım. O qədər mübariz ruhlu oğullarımız var idi ki, onda əmin oldum ki, biz qalib gələ bilərik və çox şükürlər olsun ki, biz düşməni döyüş meydanında diz çökdürməyi bacardıq. Artıq biz qalib ölkənin qalib ordusuyuq. Bundan qürurlu nə ola bilər ki?

***Qürur demişkən onu da vurğulayım ki, bu gün statusundan və harada yaşamasından asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı fəxr edir, qürurlanır.***

***Döyüşlərin iştirakçısı kimi çətinlik çəkdiyiniz məqamlar oldumu?***

- Orda olmaq hər bir vətəndaş kimi bizim də borcumuz idi. Bizə çətinlik yaradan heç nə olmadı. Çünki, onlar bizdən qorxurdular, biz bir addım belə geri çəkilmədən irəlilədik. Qarşımızdakı düşmən də çox yaxşı bilirdi ki, bizi heç bir çətinlik qorxuda bilməz. Onlar aydın başa düşürdülər ki, biz hər bir qarış torpağımızı nə bahasına olursa-olsun geri alacağıq. Hətta, yaralı və şəhidlərimizin olmasına baxmayaraq biz ancaq torpaq, vətən deyirdik. Yaralı dostlarımız ən çətin məqamlarında belə bizlərə "Dayanmayın, irəli gedin!" deyirdilər. Bu idi bizim qələbimizin əsas səbəbi.

***Qarabağ müharibəsində iştirak edən bir hərbçi kimi xalqa nə demək istəyərdiniz?***

- Xalqıma onu demək istəyərdim ki, xalqın, millətin, torpağın uğrunda canımızdan keçməyə hazır olmaq hər birimizin borcudur. Amalımız, niyyətimiz hər şey vətən üçün olmalıdır! Şəhid olmağı belə gözə alıb "Vətən sağ olsun" deməyi bacarmalıyıq.

***Cəbhədən Naxçıvana geri qayıtdıqdan sonra ilk olaraq nə etdiniz?***

- Naxcıvana qayıdan kimi ilk öncə ailəmi görüb sonra şəhid qardaşlarımızın məzarını ziyarət etdim və ailələri ilə görüşüb igid övladları ilə bağlı xatirələrimi danışdım. Çünki onların hamısı gözümüzün önündə şəhid olub, haqqın dərgahına qovuşub. Şükürlər olsun ki, indi onların ruhu şaddır. Hamımızın yeganə istəyi o idi ki, torpaqlarımızın hər bir qarışı mənfur düşməndən alınsın və qələbəmizi bayram edək. Hər qalibiyyət əldə etdiyimiz döyüşdən sonra Xocalıda günahsız ölən bacı və qardaşlarımızın ruhu qarşısında hesab verdiyimizi düşünür və rahatlıq tapırdıq. Buradan şəhid ailələrinə səslənib deyirəm "Rahat olun, şəhidlərimizin qisası alındı, onların qanı yerdə qalmadı".

***Müsahibə üçün çox sağ olun. Vaxtınızı bizə ayırdığınız üçün sizə öz minnətdarlığımı bildirirəm. Bütün Azərbaycan xalqı sizin kimi qəhrəman oğullarla fəxr edir. Ali Baş Komandanımız başda olmaqla Tanrı bütün əsgərlərimizi qorusun! Allah bütün şəhidlərimizə rəhmət eləsin!!!***

***Çox şükür, artıq yeni ilimizi Qarabağ torpaqlarında qeyd edirik. Mən bütün xalqıma sevincin daima və əbədi olsun deyirəm. Azərbaycan xalqı öz arzusuna çatdı. Qaçqınlıq statusu vətəndaşlarımızın üzərindən götürüldü. Böyükdən-kiçiyə hər bir vətəndaş müharibə dövründə öz birliyini nümayiş etdirdi. Hər kəs bu şüar altında birləşdi və illər keçsə də bu fikir unudulmayacaq. QARABAĞ AZƏRBAYCANDIR! Bu qələbəni bizə yaşadan Ali Baş Komandanımız və müzəffər ordumuza sonsuz minnətdarlıq duyuram. Bundan sonra bayrağımız əzəli və əbədi Qarabağ torpaqlarında dalğalanacaq!!!***

**Bülbül Quliyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

Dünya üzərində hər bir xalq özünün gələcəyə olan ümidlərini gənc nəslə bağlayır. Gənc nəslin mütəşəkkil formada yetişdirilməsi ölkə üçün ən başlıca məsələlərdən biridir. Çünki gənclər millətin gələcək davamçısı, bugünkü təmsilçisidir. Gələcək və gənclik sözlərinin bənzəməsi yəqin ki, təsadüfi hal deyil. Gənclərin mükəmməl yetişdirilməsi ölkədəki sosial – iqdisadi, ictimai – siyasi və hüquqi bazanın formalaşmasında mühüm rol oynayır. Hər bir ölkənin gəncləri qədim diyar həm də gənclər şəhəridir. Muxtar Respublikanın bütün sahələrində gənclərin inkişafı üçün hərtərəfli şərait yaradılıbdır. Gələcəkdə potensial kadrların hazırlanmasında məqsədyönlü işlər görülür. Atılan bütün uğurlu addımlar Ulu Öndər siyasətinə sadiq qalan, xalqına, o cümlədən gənc həmvətənlərinə sonsuz sevgi bəsləyən cənab Vasif Talıbovun səriştəsinin uğurlu nəticəsidir. Cənab Vasif Talıbovun "Ali və orta ixtisas müəssisələrinin müxtəlif təşkilatlara hamiliyə

## GƏNCLƏR PAYTAXTININ XOŞBƏXT GƏNCLƏRİ

mənsub olduğu millətin mentalitetinə uyğun formalaşdırılır. Tarixi biliklərimizə istinad edərək demək olar ki, qədim Yunanıstan və Romada gənclər diktatorluq xüsusiyyətlərinə uyğun, qədim Spartada isə döyüşçülük məharətinə əsasən formalaşdırılırdı.

Azərbaycanımız hərtərəfli inkişaf edərək tarixinin ən yüksək zirvəsinə gəlib çatıb. Ölkəmizə layiqli bir vətənpərvər gənc kimi formalaşmaq çətin, bir o qədər də



şərəfli missiyadır. Ümumilli lider Heydər Əliyev hər zaman deyirdi: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir". Bəli, Azərbaycan gənci qarşısında duran əsas məsələ milli mənsubiyyətini, dilini, adət-ənənələrini, milli mədəniyyətini qoruyub, inkişaf etdirib olduğundan daha mükəmməl bir şəkildə gələcək nəsillərə miras qoymaqdır.

Ulu öndər Heydər Əliyevin ölkəyə siyasi qayıdışından sonra bütün sahələrdə uğurlu addımlar atılmağa başladı və tezliklə görülən işlər öz bəhrəsini verdi. Ümummilli liderin siyasi xəttinin əsasını gənclik təşkil edirdi. Gənclərə göstərdiyi diqqət və qayğı bu gün də öz bəhrəsini verməkdə davam edir. Gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1996-cı il 2 fevral tarixində Azərbaycan Respublikası gənclərinin ilk forumu keçirildi. Bu forum uğurlu yolda atılan ilk addımlardan biri idi. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ulu öndər siyasi xəttinin davamçısı olaraq gəncləri hər zaman diqqət mərkəzində saxlayıbdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğuliyyətə cəlb edilməsi üçün 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramı" nın təsdiq edilməsi haqqında Sərəncamı gənclərə olan dövlət qayğısını bir daha sübut etdi.

Bəşər sivilizasiyasının mədəniyyət ocaqlarından olan, füsunkar təbiəti, ləziz təamları, minilliklərə şahidlik edən tarixi abidələri, bir sözlə zəngin mədəniyyət mərkəzi olan Naxçıvanım, istəyirəm ki, bu gözəllikləri qoynunda böyütdüyün gənclərinin dilindən eşidəsən. Yazında yarpızına, nanəsinə vurulduğum, yayında göycəsinə, alçasına tamah saldığım, payızında ocaq ətirli qovurmasından doymadığım, qışında lal təbiətini sevdiyim, Tanrının başına sığal çəkdiyi yurdum, Naxçıvanım. Azərbaycanın ayrılmaz hissəsi olan bu verilməsi" haqqında imzaladığı Sərəncam yaradıcı sahəyə ilk qədəm qoyan biz gənclərin öz bilik və bacarıqlarını sınamasına geniş zəmin yaratdı. Təhsil sahəsində atılan uğurlu addımlar hər bir gəncin rifahı və gələcəyi üçün əsaslı məqsəd daşıyır.

Asudə vaxtlarımda kitab oxumağı, ailə böyükləri ilə söhbətlər etməyi çox sevirəm. Onlardan ötən əsrin ikinci yarısında şahidi olduqları hadisələri dinləmək məndə xoş, bir az da nağıl təəssüratı bağışlayır. Dinləyərkən aydın olur ki, ötən əsrin çalxantılı, bir o qədər də çətin günləri gənc nəslin formalaşmasında maneə idi. Həddi-büluğa çatmayan uşaqların, gəncliyini şirin yuxularına haram qataraq neft və çörək növbələrində puç edən həmin insanların üzlərində dərin kədəri hiss etmək çox da çətin olmur. Yaşadıqlarını dilə gətirərkən "Kaş bizim üçün də belə gözəl şərait olardı" deməyi də unutmurlar.

Muxtar Respublikamızda məqsədyönlü şəkildə həyata keçirilən işlərin nəticəsi olaraq bu gün müasir gənclik də yeni inkişaf mərhələsinə qədəm qoyub. Uğurla davam etdirilən dövlət gənclər siyasətinin böyük amallara hesablanmasını bu sahədə qazanılmış uğurlar təsdiqləyir. Gənclərin mütaliə bacarığını artırmaq, dünyagörüşlərini formalaşdırmaq üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən "Oxunması zəruri olan kitablar" haqqında Sərəncam gənclərin sosiallaşdırılması, internet resruslarından mütəmadi və düzgün şəkildə istifadə edilməsi problemlərini aradan qaldırdı.

Ali Məclisin Sədri cənab Vasif Talıbov deyib: "Bu gün bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır".

Günü-gündən gözəlləşən doğma yurdumuzda görülən işlər, atılan uğurlu addımlar insanı qürurlandırır. Bu uğurların nəticəsidir ki, 2018-ci ildən etibarən Naxçıvan Gənclər paytaxtı kimi adını tarixə yazdırdı. Qoca şərqin qədim diyarının cavan vətəndaşları olaraq bizim üçün göstərilən diqqətə və qayğıya sadiq olmalı, bizə olan etimadı doğrultmalı, əlimizdə olan bu gözəlliklərdən səmərəli istifadə etməli və onları gələcək nəsillərə ötürməliyik. Əməllərimizlə ifadə edək - İşıqlı gələcək, gənclərlə gələcək.

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

*Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi*
*Telefonlar: 544-08-61 (13-60)*
*yenifikir.ndu@gmail.com*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ NDU

*Qeydiyyat №330*
*Sifariş №*
*Tiraj 500*

*Redaktor: Samir Tarverdiyev*
*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.*